# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 134** **Bakı şəhəri, 12 mart 2024-cü il**

***"Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"nın və "Kvota şamil edilməyən müəssisələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il .22 noyabr tarixli 213 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"nın və "Kvota şamil edilməyən müəssisələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1073 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və 1-ci hissədə "vətəndaşlar" sözü "şəxslər" sözü ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası" üzrə:

2.1. adında, preambulasında, 1.1-ci bəndin birinci abzasında, 1.3-cü bəndin birinci və yeddinci abzaslarında, 3.3-cü, 3.4-cü bəndlərdə ismin müvafiq hallarında "vətəndaşlar" sözü ismin müvafiq hallarında "şəxslər" sözü ilə əvəz edilsin;

2.2. 1.2-ci bəndə "orta" sözündən sonra "illik" sözü əlavə edilsin;

2.3. 2.1-ci və 2.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1. Bu Qaydanın 1.2-ci bəndinə uyğun olaraq müəyyən edilən kvota Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) Mərkəzləşdirilmiş elektron informasiya sistemində (bundan sonra - MEİS) qeydə alınmış məlumatlar əsasında real vaxt rejimində MEİS tərəfindən avtomatlaşdırılmış qaydada hesablanır. Kvota müəyyən edilərkən alınan nəticələr tam ədəd olmadıqda MEİS tərəfindən ən yaxın tam ədədə yuvarlaqlaşdırılır.

2.2. İşəgötürənlər kvota barədə məlumatı kvota müəyyən edildiyi gündən 5 (beş) iş günü müddətində "e-sosial" internet portalında yaradılmış elektron kabinetləri vasitəsilə əldə edirlər.";

2.4. 2.3-cü və 2.4-cü bəndlər ləğv edilsin;

2.5. 3-cü hissə üzrə:

2.5.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.1. Müəssisələr üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə işçilərin qəbul edilməsi Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarının (bundan sonra - Agentliyin yerli qurumları) və ya "DOST" mərkəzlərinin göndərişi ilə həyata keçirilir. İşəgötürən MEİS-in "Məşğulluq" altsistemi (bundan sonra - MAS) tərəfindən elektron qaydada təqdim edilmiş göndərişə əsasən 5 (beş) iş günü müddətində sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin vakansiya üzrə işə qəbulundan imtina etməsi və ya vakansiyaya uyğun işlə təmin etməsi ilə bağlı qərarı barədə göndərişdə müvafiq qeydlər aparır və bu barədə məlumatı MAS-a daxil edərək, gücləndirilmiş elektron imzası ilə təsdiqləyir.";

2.5.2. 3.2-ci, 3.5-ci bəndlər və 4-cü hissə ləğv edilsin;

2.5.3. 3.3-cü bəndə "ehtiyacı olan" sözlərindən sonra "və işə düzəlməkdə çətinlik çəkən" sözləri əlavə edilsin və həmin bənddən "şəhər, rayon Məşğulluq Mərkəzinə və ya "DOST" mərkəzinə ən geci 5 gün müddətində məlumat vermək şərtilə," sözləri çıxarılsın;

2.5.4. 3.4-cü bəndə (hər iki halda) "ehtiyacı olan" sözlərindən sonra "və işə düzəlməkdə çətinlik çəkən" sözləri əlavə olunsun və həmin bənddə "şəhər, rayon məşğulluq mərkəzləri" sözləri "Agentliyin yerli qurumları" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2024.- 14 mart, № 57.- S.9.